# MÜQƏDDƏS TORPAĞA ŞANLI QAYIDIŞ

## *Azad Şuşada Azərbaycanın görkəmli dövlət xadimi, mütəfəkkir, şairə Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunan tədbir və Şuşaya ilk səfərim*

*(Əvvəli ötən saylarımızda)*

Biz Natəvanın “Məclisi-üns”ünü bərpa edərək həm də keçmiş ənənələrimizi bərpa edir, yaşadırıq. Həmin gün həm Natəvanın 190 illiyi təntənəli şəkildə qeyd edildi, həm də “Məclisi üns” İctimai Birliyinin əsası qoyuldu. Bu gözəl və tarixi hadisəyə şahidlik etdiyim üçün çox sevincliyəm və özümü xoşbəxtlərin xoşbəxti bilirəm. Şuşaya ilk səfərimin belə bir möhtəşəm tədbirin keçirildiyi tarixə təsadüf etməsinin və həmin tədbirə şahidlik etməyimin sevinci isə tam başqa idi.

Bu tədbir hər mənada çox gözəl keçdi. Tədbirdə bir çox mədəniyyət işçiləri, mədəniyyət sahəsində səlahiyyətli şəxslər və böyük aydınlar çıxış etdilər. Hörmətli millət vəkillərimiz - Rafael Hüseynovun və Qənirə xanım Paşayevanın çıxışı çox təqdirəlayiq idi. Azərbaycan ədəbiyyatının ulu çinarı, hörmətli ziyalımız, xalq yazıçısı Anar müəllimin çıxışı da Natəvan irsinə göstərilən hörmət və dəyərin bariz nümunəsi olan bu tədbir ilə bağlı idi. Tədbir zamanı Türk dünyasının qardaş ölkələrindən gəlmiş gənc şairlər də öz şeirlərini söylədilər. Qazaxıstandan olan gənc şair 1986-cı ildə qızıl ordu tərəfindən törədilən Jeltoksan qətliamı ilə bağlı yazdığı “86 Jeltoksan” şeirini söylədi. Özbəkistandan olan şairlərin çıxışları da çox diqqətəlayiq idi. Qırğızıstandan olan şairlər Derdibek bəy və Nurqız xanımın şeirləri də sevilərək dinlənildi. Tədbirdə ən çox bəyənilən şeirlərdən biri də qardaş Türkiyədən gəlmiş şair Atabəy Barışın Daşaltı əməliyyatı və şəhid Təbriz Xəlilbəyli haqqında yazdığı şeir idi. Şeir həm axıcılığına görə, həm deyilmə tərzinə görə və hər sahədən tədbir iştirakçılarınıngurultulu, dayanmaq bilməyən alqışları ilə qarşılandı. Tədbir zamanı qardaş ölkələrdən gəlmiş şairlərlə görüşərək onlara öz kitabımı hədiyyə etdim. Onlar da mənə öz ədəbiyyatlarının nümayəndələrindən olan şairlərin kitablarını bağışladılar. Türk şair Atabəy qardaşımın səmimiyyəti, məni Ankarada olan evlərinə dəvət etməsi və istənilən zaman qəbul edəcəyini bildirməsi mənə çox xoş təsir bağışladı, öz növbəsində mən də onu qonaq kimi deyil, qardaş kimi öz evimizə dəvət etdim.Azad Şuşa və onun torpağı üstündə keçirilən bu tədbir mənə xoş xatirələr və səmimi yoldaşlıqlar qazandırdı.

Onu da qeyd edim ki, tədbirdən sonra tədbirin səhnəsində cənab nazirimiz Anar Kərimovla xatirə şəkli çəkdirdik. Tədbir üçün gəlmiş dəyərli millət vəkilimiz, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə xanım Paşayeva mənimlə “MaşAllah, mənim balam böyüyüb” deyərək səmimi görüşdü, məni qucaqlayıb ana nəvazişi ilə köksünə sıxdı. Mən zəfərimizə, şəhidlərimizə həsr etdiyim “Möhtəşəm zəfərin nişanəsi” adlı kitabımı Qənirə xanıma hədiyyə etdim. O isə özünün Xurşidbanu Natəvana həsr etdiyi kitabını mənə bağışladı və biz onunla da birlikdə şəkil çəkdirdik.Qənirə xanımın da mənə olan isti münasibəti məni çox duyğulandırdı.

Tədbir bitdikdən sonra biz əvvəlcə “Xan qızı” bulağını ziyarət etdik. Bu bulağın önündə olmaq, bu bulaqdan su içmək, bu pak suyu əlinə alıb üzünə çəkmək Allahın yerüzündə bizə qismət etdiyi saysız-hesabsız xoşbəxtliklərdən biri idi. Bu bulaq Ali Baş Komandanımızın göstərişinə əsasən Şuşa azad edildikdən və Prezidentimizin göstərişinə əsasən o, Şuşanı ilk ziyarət etdikdən sonra bərpa edilərək əvvəlki vəziyyətinə qaytarılan abidələrimizdən ilki olmuşdur. Mən xoşbəxtliyi həmin gün o bulaqdan su içərək daddım. Bu suyun dadı ilə xoşbəxtliyin dadı eyni imiş, bunun fərqinə onda vardım...

Bu xoş anlardan sonra özümüzü növbəti ziyarət məkanına hazırladıq. Növbəti ziyarətimiz isə müqəddəs Şuşanın tarixi, əzəmətli və möhtəşəm məkanı olan Cıdır düzünə və böyük şair, mütəfəkkir Molla Pənah



Vaqifin məqbərəsinə idi. Buraya yol nə qədər enişli-yoxuşlu, bir az uzaq məsafədə olsa da, yorucu olmadığından (orada nə qədər piyada gəzsən də,insan yorulmaq bilmir) ziyarətimizi yenədə öz istəyimizlə piyada olaraq davam etdirdik, çünki istəyirdik ki, bu yerdə hər daşa, hər torpaq zərrəsinə, hər əşyaya, hər şeyə toxunaq, təmasda olaq, onu hiss edək, özümüzü, əsl sahiblərini 30 illik fasilədən sonra buranın hər daşına, qayasına, torpaq zərrəsinə hiss etdirək. Bu isə mənə lap xoş gəlirdi, ələlxüsus da Şuşa küçələrində. Şuşa küçələri dediyim zaman sanki özümü nağıllar aləmində hiss edirəm. Küçələr deyil bunlar, sanki həyat yolu, həyat işığıdır. Göz işlədikcə sağda-solda görünən ağaclar, ağacların budaqlarından sallanan meyvələr adamın gözünə rahatlıq verir, könlünü xoş edir, elə bil hamısı bizə “xoş gəlmisiniz” deyib, bizi səmimi salamlayırdı. Bura küçədən çox göz xəstəliklərinə şəfa verənşəfa xəstəxanasına bənzəyir sanki. Buraları gördükdən sonra insanın gözünün ağrısı gedir, insanın gözünə həyat işığı gəlir. Təbii ki, yolboyu ürəyimizin ağrıdığı, göynədiyi, gözümüzün sanki qanadığı yerləri də gördük. Söhbət Şuşada bir zamanlar bu şəhərin rəmzi olan tikililərdən, daha doğrusu,ermənilərin emblemi olan indiki xarabalıqlardan gedir. Bu xarabalıqlar erməni vəhşiliyə məruz qalmış yarı yandırılmış, indi azadlığa çıxmış libası olan bir qadına bənzəyir. Lakin namusu ilk günkü kimi təmizdir və onu qoruyan övladları var. O övladlar ki, onun uğrunda hər an can verməyə, qan tökməyə hazırdırlar! O övladlar ki, yolunda şam kimi əriməyə hazırdırlar! Məhz buna görə bu Vətənin namusu təmiz, qeyrəti təmizdir. Bu Vətənin özü kimi təmiz övladları da var. Bu Vətən torpaqlarına ayaq basan hər kəsin can rahatlığı bu övladların sayəsindədir. Biz bu qeyrətli, namuslu övladlarla ömür boyu fəxr etməliyik və edəcəyik də! Necə ki bu Vətənlə fəxr edirik, eyniqayda ilə də onun bu cür qeyrətli, vətənpərvər cəngavərləri ilə qürur duymalıyıq, duyuruq və duyacağıq!

Elə bu fikirlərlə addımlayaraq yolumun növbəti hissəsinə çatdım və qarşımda ulu bir məqbərə dikəldi. Bu məqbərə öz böyüklüyü və ululuğu ilə mənim gözümdə öz ululuğunu bir dahabeynimdə həkk elədi və beynimdə heykəlləşdi, bir daha ululaşdı mənim üçün.Çünki erməni vandalları onun metal konstruksiyalarını söküb satmaqla haram yolla çörəkpulu əldə etsələr də,o məqbərə-heykəl 30 il ərzində düşmənlərin önündə də yenilməz bir komandan kimi özünü qoruyub saxlamışdı. Özümü yuxuda hiss edirdim. İllər uzunu şəkillərdən gördüyüm, tarixi açılışını arxivlərdən qısa-qısa izlədiyim bu gözəl məqbərə mənə nəfəsdən də yaxın idi. İndi mənim arzumun çin olması o məqbərəni görmək, qapısını açmaqdan asılı idi. Qapı açıldı və içəri girdim. Məqbərənin başladığı yerə qədər oturacaqlar düzülmüşdü. Məqbərənin sağ tərəfində görünən o uca dağ sanki məqbərəni müşayiət edən, onu qoruyan başqa bir heykəl idi ya da sanki məqbərədə yatanın ruhu idi. Bir yanda böyük şair Vaqifin bədəni, bir yanda isə ruhu bərqərar olmuşdu sanki. Məqbərənin sağ tərəfində yerləşən məlumat paneli çox diqqətəlayiqdir. Paneldə böyük şairin məqbərəsinin tarixi və təntənəli açılışı ilə bağlı şəkillər, illər sonra Ali Baş Komandan cənab İlham Əliyevin məqbərəyə ailəsi ilə birgə səfər etməsi ilə əlaqədar foto şəkillər yer almışdır. Alt hissədə Molla Pənah Vaqifin məşhur məqbərəsinin ilk variantının -erməni mənfurları tərəfindən dağıdılmış variantının qalıqları eksponat kimi yerləşdirilmişdir. Bu panel Vaqifin kiçicik bir məqbərə-muzeyi idi sanki.

Məqbərənin içərisinə doğru gedən zaman yadıma düşdü ki, əlimdə Molla Pənah Vaqifə 2020-ci ildə Vətən müharibəsinin gedişi dövrü həsr etdiyim, “Möhtəşəm Zəfərin nişanəsi” adlı kitabımda yer almış “Yaşa, Vaqif!” adlı poemam var və mənim bura gəlişimin bir məqsədi də Ulu şairin məqbərəsi önündə həmin poemadan müəyyən parçaları səsləndirmək arzumu gerçəkləşdirməkdir. O an sehrdən ayıldım və Vaqifin məqbərəsi önündə böyük şairə həsr etdiyim “Yaşa, Vaqif!” adlı poemamdan parçaları söylədim.

Poemamdan parçaları məqbərə önündə böyük istək vəzövqlə söylədikdən sonra bu arzumu yerinə yetirdim və məqbərənin içərisini ziyarət etməyə başladım. İçəridə böyük şairimizin əbədi uyuduğu yeri və onun bir qədər yuxarısında dikələn büstünü gördüm. Məqbərə içli-çöllü gözəlliyi, parlaqlığı ilə məni sehrləmişdi.

Məqbərəyə olan səfərimi başa çatdırdıqda bunları fikirləşirdim. Əslində, Vaqifin məqbərəsi həm də yaxın tariximiz cəhətdən tarixilik xüsusiyyəti daşıyır. Çünki bu məqbərə bizim Şuşaya olan böyük qayıdışımızın ilk və ən böyük, ən gözəl nümunələrindən biridir. Qısa zamanda Heydər Əliyev Fondunun təşəbbüsü ilə işğaldan əvvəlki vəziyyətinə qaytarılması ilə yanaşı çox böyük ustalıqla və dəqiqliklə tikilən bu məqbərə sanki Zəfər tariximizin yeni bir qoludur. Bu, öz-özlüyündə dünyaya bir mesajdır ki, biz öz torpağımıza gəlmişik və hərçənd ki, bu diyarda yıxılası bir yer qalmayıb, biz bura yıxmağa deyil, qurmağa gəlmişik!

Ulu şairimizin məqbərəsini ziyarətdən sonra oradan bir neçə addım uzaqlaşmışdıq ki, qarşımda bir ucalıq da dikəldi. Ucalığın, yüksəkliyin və ululuğun bütün tərifləri özünü burada sınayırdı. Bu yerlərdə bütün lüğətlər, bütün alimlər ucalığın tərifini verməkdə aciz olurlar. Çünki o saat onlar başa düşürlər ki, əsl ucalıq elə görünən bu müqəddəs yerdə də müqəddəs olan bu məkandır. Bu məkanın adı Cıdır düzüdür, hansı ki Azərbaycan əsgəri bu düzənliyin sonunda başlayan sıldırım qayalıqlardan qalxmaqla düşmənin ağlına gəlməyən yerlərdən keçib Şuşamızı düşmən əlindən xilas etmişdilər!Cıdır düzü nəyə görə bizim üçün bu qədər ucadır? Bu sualın cavabını Şəhidlərimiz 8 noyabr 2020-ci ildə verdikləri üçün mən bu suala cavab verməyəcəyəm. Bu ucalığın qarşısında o gün susduğum kimi susacağam. Amma istərdim ki, hər şeyi mən yox, Cıdır düzü özü danışsın. Onun dili olsun və danışsın. Danışsın ki, 30 il nələr çəkib? Danışsın, desin ki, gözünün qabağında həbsxana divarlarında nə qədər günahsız Vətən oğulları işgəncə görüblər? Danışsın ki, ilbəil bura turistlər gəlib “Bura məşhur erməni şəhəri Şuşinin Katarot düzüdür” deyən zaman içindən nələr keçirib? Od olub yanıbmı, su olub sellənibmi, külək olub tufan qoparıbmı, şimşək olub çaxıbmı? Erməni oğlu erməni paşik sərxoş halda orada yallı gedəndə o, hansı hissləri keçirib? “Hanı bu yurdun ərənləri” deyibmi? Bunları unudubmuya hamısını sıxıb daxilindəmi saxlayıb? Danışsın ki, 30 ildən sonra ilk Azərbaycan əsgərini gördüyü zaman hansı hisslər keçirib? Danışsın ki, neçə igid dişi ilə, dırnağı ilə bu ucalığa çatmağa çalışdı? Neçə igid gözü qarşısında bu ucalığı fəth edərkən elə bir ucalığa çatdılar ki, Cıdır düzü onun ucalığına aşağıdan yüksəyə baxmalı oldu?! İstərdim ki, Cıdır düzünün dili olaydı və danışaydı. Onda Şəhidlərimizin yazdığı dastan qədər bir kitab alınardı. Bütün mətləblər aydın olardı.

Mən hesab edirəm ki, Şuşada, Cıdır düzündə yazılan bu Şəhid dastanları sanki elə Şuşanın, Cıdır düzünün özünün qələmindən çıxıb. Şəhidlər torpağın altına köçən zaman Cıdır düzü bunları nəql edib və nəticədə Şəhidlər Cıdır düzünün özünün xeyirduası ilə dastanı yazıblar. Bu dastanı Cıdır düzünün özünün duası ilə silinməz bir izlə “Xuramanuçan”ın qayalarına əbədi olaraq qızıl hərflərlə həkk ediblər.

Cıdır düzüdə həmin məkanda başqa bir əfsanədir, orada olan zaman sehrlənməmək olmur. Orada xəyallar səni uçurduqca uçurur. Nə qanadın var, nə təyyarən, ancaq bunların heç bir təfavütü yoxdur, elə hey göyün ənginliklərinə uçursan, başın üzərində də Cıdır düzünün qanadları... Cıdır düzü səni öz qanadları altına alır və sən də bu gözəl nağıllar diyarına, sehrlər aləminə baxıb, bu cür gözəlliklərə şahid olub sehrlənirsən.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 12-ci səhifədə)*

Özünü dünyanın ən gözəl yuxusunda hesab edirsən. Bu yerdə deyiblər:"Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda Vətən olur". Qarabağ, Şuşa, Cıdır düzü... Bu müqəddəs məkanlar Azərbaycan adlı vətənimin içində ikinci vətənim, göz bəbəyimdir. Vətən adlı müqəddəsliyin içində yatan ikinci bir paklıq, ikinci bir müdriklik Qarabağda məskən salıb, orada yaşayır, gizlənir. Bu gizliliyi aşkar etmək üçün gərək mütləq bu yerləri görəsən. Bu sözlə ifadə oluna bilməyəcək anı yaşayasan, yuxu hesab elədiyin anı... Belə yuxunu da hər kəs görə bilmir, hər kəsə nəsib olmur. Bizə nəsib oldusa, əvvəlcə Allaha şükür, sonra isə Şəhidlərimizin ruhuna rəhmət, qazilərimizə can sağlığı, ordumuza Allahın duası, Prezidentimizə və təşəbbüskar nazirimiz cənab Anar Kərimova Allahdan can sağlığı nəsib olsun! İnşəAllah!Amin!

Şuşa azad olunandan bəri bunu da arzulamışdım ki, Cıdır düzünə səfər etmək nəsibim olsun və Şuşanın artıq başı dumansız olan dağlarında onun şəninə qoşduğum şeirləri hüzurunda deyə bilim. Allah bunu da mənə qismət etdi! Mən Cıdır düzündə, Şuşanın hüzurunda ona yazdığım "Ata, ruhun şad oldu!", "Dəstur,-Şuşada Bozqurd var!" və "Var ol, Azərbaycanım!" adlı şeirlərimi söyləyə bildim.

Son olaraq hər an ələ düşməyən bu səfərin sonuna gəldiyimizi biləndə təəssüf hissi keçirmədim. Adətən, pis anlar üçün, pis xatirələr üçün təəssüf hissi, heyfsilənmək hissi baş verir. Amma burada elə yaxşı anlar keçirdim, elə yaxşı xatirələrim oldu ki, Şuşa üzümdə bir gülümsəmə buraxaraq məni yola saldı. Mən həyatımda görüb görə biləcəyim ən gözəl rəsmi həmin gün gördüm, Böyük Qayıdışın rəsmini. Qürurla dikələn bir Cıdır düzü və onun əngin səmalarında onu ucaldıqca ucaldan və özü də ucalan bir Azərbaycan bayrağı...

## MÜQƏDDƏS TORPAĞA ŞANLI QAYIDIŞ

Həmin gün mənim həyatımda çox gözəl izlər buraxdı. 9 sentyabr günü mənim arzularımın günü oldu. Həyatımda yaşayıb yaşaya biləcəyim, yaşada biləcəyim ən gözəl günlərdən biri oldu. Mənim üçün 9 sentyabr Şuşa ilinin Şuşa günü idi. Xatirələrlə əbədiləşən, ölümsüzləşən həmin gün ölənə qədər mənim qəlbimdə həmişə yaşayacaq... Biz bir də yaşamayacağıq, ancaq yazılarımız yaşayacaq. Bizdən sonra gələn nəsil yaşadığımız bu gözəl günü, bu əlçatmaz hissləri daha da ölümsüzləşdirəcək. Mən nə vaxtsa həyatda olmasam belə mənim üçün əbədi olan 9 sentyabr günü Şuşa qədər əbədi olacaq...

Bütün bunları indi yazıram və nöqtələyirəm. Bəlkə, bu müqəddəs məkana, bu nağıllar aləminə, sehrlər diyarına ikinci, üçüncü səfərlərim də olacaq və Şuşa haqqında bundan da geniş yazılarım olacaq. Bundan 20-30 il keçəcək və mən həmin gün, bəlkə də bir çox arzularıma çatmış olacağam. Ancaq illər sonra bu məqaləni oxuduğum zaman o xoş xatirələr yenidən yadıma gələcək. Həyatda ilklərin yeri həmişə ayrı olur. Mən bu ilk səfərimi, illərlə dilədiyim arzumun gerçəkləşməsini heç bir zaman unuda bilməyəcəyəm. Eyni zamanda bu səfərə rəvac verən böyük insanları da unuda bilmirəm və indi o böyük insanların adını təşəkkür məqsədi ilə çəkəcəyəm. Həm tədbiri, həm də arzumu gerçəkləşdirdiyinə görə Mədəniyyət nazirimiz cənab Anar Kərimova, Mədəniyyət Nazirliyinin bu sahədə əməyi, zəhməti olan bütün əməkdaşlarına bir daha dərin minnətdarlığımı bildirirəm.

Sonda onu bildirmək istəyirəm ki, Şuşa, sən azadsan! Və nə yaxşı ki sən azadsan, nə yaxşı ki dirçəlirsən!Prezidentimiz cənab İlham Əliyev dediyi kimi:"Şuşa biz səni dirçəldəcəyik!"Bəli, səni dirçəldəcəyik Xarı bülbülü şəhidlərimizin qanı ilə dirçəltdiyimiz kimi! Yaşasın Azərbaycan, Yaşasın Azərbaycan Xalqı, Azərbaycan Ordusu, Ali Baş Komandanımız, Yaşasın xalqın birlik simvolu olan Dəmir Yumruq! Qarabağ Azərbaycandır!

***24.09.2022.***

***SEVİNDİK NƏSİBOĞLU***
***9-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***